**UOT:781**

# MƏKTƏBLİLƏRİN MUSİQİ TƏRBİYƏSİNDƏ DƏRSDƏNKƏNAR TƏDBİRLƏRDƏ S.S.PROKOFYEVİN FORTEPİANO YARADICILIĞINDAN İSTİFADƏ ÜZRƏ İŞİN METODLARI

***Məmmədova Qəsirə Tofiq qızı***
***Gəncə Dövlət Universiteti***
***qasira.mammedova@gmail.com***

**Xülasə:** *Məqalədə görkəmli rus bəstəkarı, pianoçusu və dirijoru Sergey Sergeyeviç Prokofyevin fortepiano yaradıcılığından ümumtəhsil məktəblərində dərsdənkənar tədbirlərdə istifadə etməklə şagirdlərin musiqi tərbiyəsinin formalaşmasının inkişafı üzrə işin metogları araşdırılmışdır.*

*Məqalədə XX əsr musiqi mədəniyyətində xüsusi yeri olan S.S.Prokofyevin fortepiano musiqisinin ümumtəhsil məktəblərində tədris edilməsinin əhəmiyyəti müəyyənləşdirilmiş, təcrübi təkliflər irəli sürülmüşdür.*

*Əldə olunmuş nəticələr göstərir ki, S.S.Prokofyevin fortepiano əsərlərindən ümumtəhsil məktəblərində şagirdlərin musiqi tərbiyəsi və musiqi inkişafında geniş istifadə olunması musiqi tərbiyəsi işinin müasir dövrün tələbləri səviyyəsində həyata keçirilməsinə kömək edən vasitələrdən biridir.*

**Açar sözlər:** Sergey Sergeyeviç Prokofyev, bəstəkar, fortepiano musiqisi, məktəb, dərsdənkənar .

**Ключевые слова:** Сергей Сергеевич Прокофьев, компози тор, фортепианная музыка, школа, внеклассная.

**Key words:** Sergey Sergeivich Prokofyev, composer, fortepiano music, shcool, extracurricular.

Görkəmli rus bəstəkarı, pianoçusu və dirijoru Sergey Sergeyeviç Prokofyev (1891-1953) rus və Qərbi Avropa pianizminin ən yaxşı ənənələrini mənimsəmişdir. S.S.Prokofyev bəstəkar olmaqla yanaşı həm də peşəkar pianoçu idi. O,1909-cu ildə Peterburq konservatoriyasında A.K.Lyadovun sinifində bəstəkarlıq ixtisası, 1914-cü ildə isə A.N.Yesipovanın sinifində fortepiano ixtisası üzrə təhsil almışdır.

S.S.Prokofyev fortepiano musiqisini mühüm yeniliklərlə zəngənləşdirmişdir. Onun fortepiano yaradıcılığı hələ XVIII əsrdə inkişaf etmiş klassik janrlar, eləcə də ro mantik bəstəkarların musiqisində intişar tapmış janrlarla sıx bağlıdır. Bəsrəkar həm kon sert, sonata kimi klassik janrlara müraciət etmiş, həm də proqramlı miniatürlər və pyeslər silsilələri yaratmışdır.

S.S.Prokofyevin fortepiano yaradıcılığında "Ötəri anlar" (1915-1917) adlı 20 miniatürdən ibarət silsilə xüsusi yer tutur. Əsərin adı K.D. Balmontun (1867-1942) şeirlərindən birində ötəri anlar haqqında söylədiyi ifadədən götürülmüşdür. Bu əsərd ə nağıl obrazları Prokofyev üslubu üçün səciyyəvi olan aforizm şəklində yığcam, lokonik tərzdə təqdim edilir. S.S.Prokofyev "Ötəri anlar" əsərində öz təəssüratlarını musiqi dili ilə ifadə edir, əsər açıq şəkildə obrazlı və xarakterldir. "Miniatürlər S.S.Prokofyev musiqisinin tipik obrazlarını ifadə edirlər; nağılvarı, lirik, yumoristik, emosional - dramatik. Bütün bunlar ümumilikdə əsərdə özünü göstərir. Eyni zamanda "Ötəri anlar" miniatürlərində həddindən artıq sərtlik, səmimilik, mənəviyyatın zənginliyi musiqi dili ilə özünü göstərir. Bəstəkar özü qeyd edirdi ki, "Sarkazmlar" və 2-ci fortepiano konsertdən sonra "Ötəri anlar" əsərini bəstələyərkən "xarakterinin dəyişməsi" ni , bundan da daha çox onda lirik hisslərinin güclənməsini hiss edir" [7.245].

"Baxın qeydləri səsin gücü və tempini göstərən işarələrlə kifayətlənərək, bir çox başqa yerlərdə maksimum azadlıq imkanları yaradır. Görkəmli pianoçu-bəstəkarlar – F.List,

F.Şopen, S.V.Raxmaninov, N.K.Metner, S.S.Prokofyev- əksinə, mətnlərini ifaçılıq qeydləri ilə doldururlar, ona görəki, onların əsərlərində yazı üslubu, faktura və bütün hərəkət sistemi və texniki priyomlar aydın şəkildə bəstəkarın bədii fikrini açiqlayır" [2. 104].

S.S.Prokofyevin fortepiano əsərlərinin öyrənilməsi və ümumtəhsil məktəblərində dərsdənkənar tədbirlərdə istifadə edilməsi üçün metodiki məsələlərin həlli olduqca vacibdir.

Dərsdənkənar tədbirlərdə məktəblilərin musiqi tərbiyəsində bir vasitə kimi S.S.Prokofyevin fortepiano yaradıcılığından istifadə iki istiqamətdə reallaşa bilər:

1. Məktəb üzrə hər hansı tədbir (ədəbi-bədii gecə, bayramlara hər hansı bir yubileyə həsr olunmuş gecə, musiqi axşamı) keçirilərkən həm də S.S.Prokofyevin "Uşaq pyesləri", "Ötəri anlar" fortepiano əsərləri səslənə bilər. Bu əsərlər ya peşəkar musiqiçilər tərəfindən, yaxud da məktəb özfəaliyyət kollektivinin üzvü olan musiqiçi - şagirdlər tərəfindən ifa oluna bilər və ya İKT vasitəsilə səsləndirilə bilər.

2. S.S.Prokofyevin əsərləri səslənərkən istifadə edilən musiqi nömrələri bəstəkarın fortepiano yaradıcılığı ilə əlaqəli olmaqla yanaşı, yaradıcılığında olan digər janırlardan olan əsərlərin (opera, balet, simfonik və s.) öyrənilməsinə istiqamətləndiriməsi.

Dərsdənkənar iş zamanı musiqi müəllimi, tədbirin digər təşkilatçıları məktəbliləri daha yaxşı tanıyır, onların fərdi xüsusiyyətlərini, hansı musiqisi janrına, o cümlədən S.S.Prokofyev yaradıcılığına marağının səviyyəsini öyrənə bilər. Məktəblilər haqqında əldə edilmiş məlumatlar, tərbiyə işini yaxşılaşdırmaqda, musiqi tərbiyəsini səmərəli aparmaqda, sinif müəlliminə, musiqi müəlliminə, sinifdənxaric və məktəbdənkənar tərbiyə işlərinin təşkilatçısına, gənclər təşkilatı və uşaq birliyi nümayəndəsinə, pedaqoji kollektivin digər işdə daha çox aşağıdakı iş formalarından istifadə olunur:

1) musiqi klubu, 2) ədəbi-musiqili gecələr, 3)tematik gecələr, 4) müzakirələr.

Dərsdənkənar tədbirlərin təşkilində məktəblilərin musiqi tərbiyəsinin formalaşmasının səmərəli keçirilməsi üçün aşağıdakı məzmunda təşkil etmək məqsədə uyğundur:

1.S.S.Prokofyevin həyat və yaradıcılığı haqqında maraqlı məlumatların verilməsi.

2. Bəstəkarın fortepiano əsərlərini dinləmək.

3. Bəstəkarın fortepiano əsərlərini ifa etmək .

4. Məktəblilərədə bəstəkarın müxtəlif janrlı əsərləri fərqləndirmək üçün biliklərə verilməsi.

5. Məktəblilərə S.S.Prokofyevin fortepiano əsərləri haqqında məlumatın verilməsi.

6. Bəstəkarın fortepiano əsərlərinin ifaçıları haqqında məlumat vermək.

Ümumtəhsil məktəblərində sinifdənxaric və məktəbdənkanar işlərlə tədris işinin qarşılıqlı əlaqəsi müxtəlif tərzdə həyata keçirilə bilər. Məsələn, bəzi hallarda sinifdənxaric iş dərsin və ya digər növ tədris məşğələsinin məntiqi davamı olur. Deyək ki, "Musiqi dərnəyi"ndə S.S.Prokofyevin həyat və yaradıcılığı haqqında dərnək rəhbəri məktəblilərə məlumat verir: "S.S.Prokofyev görkəmli rus bəstəkarı, dirijoru və pianoçusudur. Bəstəkar 22 aprel 1923-cü ildə ildə Donetsk vilayətinin Krasnoye-Krasnoarmeyskoye rayonunda alim-aqronom ailəsində anadan olmuşdur. S.S.Prokofyev 5 yaşında olarkən musiqi əsərləri yazmağa başlayır. Prokofyev musiqi tarixinə həmçinin XX əsrin ən görkəmli pianoçularından biri kimi daxil olmuşdur. S.S.Prokofyev fortepiano ilə orkestr üçün 5 konsertin müəllifidir. 1931-ci ildə sol əl üçün yazılmış 4 nömrəli B-dur (Si-bemol major) konserti Avstriya pianoçusu Birinci dünya müharibəsində sağ əlini itirmiş Paul Vitgenşteyn üçün nəzərdə tutmuşdur. Bəstəkar fortepiano üçün 9 sonatanın , 12 pyesdən ibarət "Uşaq musiqisi"nin, "Qoca nənənin nağılları" və 20 miniatürdən ibarət "Ötəri anlar" sisiləsinin, yüzdən artıq müxtəlif xarakterli pyeslərin müəllifidir.

Məktəblilərə bu kimi məlumatlar verildikdən sonra onların bəstəkarın fortepiano yaradıcılığı ilə bağlı mövzunun qavranılma səviyyəsini yoxlamaq üçün aşağıda göstərilən məzmunda aparıla bilər:

- S.S.Prokofyev hansı xalqın bəstəkarıdır ?

-S.S.Prokofyev məhşur rus bəstəkarıdır.

-Bəstəkar hansı ildə və harada anadan olmuşdur ?

-O, 1893-cü ildə Donetsk vilayətinin Krasnoye - Krasnoarmeyskoye rayonunda alim-aqronom ailəsində anadan olmuşdur.

-S.S.Prokofyev bəstəkar olmaqla yanaşı daha hansı peşə sahibi idi ?

- O, bəstəkar olmaqla yanaşı peşəkar pianoçu və dirijor olub.

-Siz bəstəkarın fortepiano üçün hansı əsrlərini tanıyırsınız ?

-Bəstəkarın fortepiano üçün 12 pyesdən ibarət "Uşaq musiqisi", "Qoca nənənin nağılları", 9 sonata, "Ötəri anlar" miniatürlərini tanıyırıq.

Dərnəyin rəhbəri özü canlı fortepianoda ifa etməklə və ya şagirdlər arasında xüsu si qabiliyyəti olan məktəblinin fortepiano ifasından istifadə edə bilər. Eyni zamanda bu mövzu ilə bağlı həm bəstəkarın həyat və yaradıcılığı haqqında, həm də fortepiano musiqisi haqqında geniş müzakirələr keçirə bilər.

Dərsdənkənar tədbirlərdə S.S.Prokofyevin fortepiano yaradıcılığından istifadə etməklə məktəblilərin musiqi tərbiysinin formalaşması üçün geniş imkanlar vardır. Musiqi müəllimləri, dərnək rəhbərləri bu imkanları yaradıcılıqla üzə çıxarmalı, onlardan səmərəli istifadə etməlidirlər. S.S.Prokofyevin fortepiano yaradıcılığının məktəblilərin musiqi tərbiyəsi baxımından geniş imkanlara malik olması diqqət mərkəzində saxlanılmalıdır .

### *Ədəbiyyat*


1. Qurbanəliyeva S.F. Şəxsiyyət və musiqi. Bakı, Adiloğlu, 2010, 160 səh.
2. Dadaşova M. Musiqi müəlliminin hazırlığının metodikası. (Dərs vəsaiti). Bakı, EİKM-in mətbəəsi, 2010. 256 səh.
3. Musiqi və nəğmə proqramı. Ümumtəhsil məktəblərinin 1-8-ci siniflər üçün. Tərtibçilər: Rəcəbov O., Xəlilov., Ağayeva S., Babayeva T., Rəcəbova N., L.Hüseynova. Bakı, Kövsər, 2006, 80 səh.
4. Rəcəbov O.,Kazımov N., Rəcəbova N. Musiqi. Ümumtəhsil məktəblərinin 2-ci sinfi üçün dərslik. Bakı, Təhsil, 2020, 56 səh.
5. Rəcəbov O., Kazımov N., İmanova O. Musiqi. Ümumtəhsil məktəblərinin 4-ci sinfi üçün dərslik. Bakı, Təhsil, 2015,72 səh.
6. Rəcəbov O., Kazımov N., Axundova Y., İmanova O. Musiqi. Ümumtəhsil məktəblərinin 5-ci sinfi üçün dərslik. Bakı, Təhsil, 2014,80 səh.

Rəcəbov O., Kazımov N., Babayeva A. Musiqi. Ümumtəhsil məktəblərinin 8-ci sinfi üçün dərslik. Bakı, Təhsil, 2014, 96 səh.

7. Советская музыкальная литература. Вып.1. Редакция М.С.Пекелиса. Москва 1972, 584 стр.


## СРЕДСТВА И ПУТИ ФОРМИРОВАНИЯ МУЗЫКАЛЬНОГО ВОСПИТАНИЯ УЧАЩИХСЯПУТЕМ ИСПОЛЬЗОВАНИЯ ФОРТЕПИАННОГО ТВОРЧЕСТВА ПРОКОФЬЕВА НА ВНЕКЛАССНЫХ ЗАНЯТИЯХ В ОБЩЕОБРАЗОВАТЕЛЬНОЙ ШКОЛЕ

***Мамедова Гасира Тофик кызы***

***Резюме***

Сергей Сергеевич Прокофьев гениальный композитор, пианист и дирижëр. Как создатель признанных шедевров в различных музыкальных жанрах, он считается одним из крупнейших композиторов XX века. В статье показаны современные средства и пути развития музыкального воспитания школьников посредством использования фортепианного творчества С.С. Прокофьева на внеклассных занятиях в обще образовательной школе.

## THE METNODS OF USING PROKOFEV'S FORTEPIANO ARTWORK DURING EXTRACURRICULAR ACTIVTIES AT SCHOLL SCHOOLS FOR STUDENTS MUSICAL UPBRINGING

***Mammeadova Qasira Tofik***

***Summary***

In this article, by using esteemed soviet and Russian composer Sergey Sergeyevich Prokofev's work in extracurricular activities in all schools as one of tools within mod ern requirements to help the musical education and upbringing has been analyzed. Specific charachteristhics of composers work related to musical culture has been emph asized.

***Rəyçi: GDU-nun "Musiqi fənləri kafedrasının" baş müəllimi G.Məhərrəmova***
***Musiqi fənləri kafedrasının 11 mart 2021-ci il tarixli kafedra iclasının 08 saylı protokolu***
***Daxil olma tarixi 24 aprel 2021-ci il***

**UOT:784.**

## MODEST PETROVİÇ MUSORQSKİNİN VOKAL YARADICILIĞI VƏ TƏDRİS PROSESİNDƏ ONDAN İSTİFADƏ

***Məmmədova Rəşidə Hamlet qızı***
***Gəncə Dövlət Universiteti***
***rashida.mamedova.68@mail.ru***

**Xülasə:** *Modest Petroviç Musorqski – "Qüdrətli dəstə"nin fəal üzvi XIX əsrin II yarısında rus musiqisində "altmışıncılar" hərəkatının görkəmli nümayəndəsidir. 1860-cı illərin qabaqcıl demokratik ideyaları onun istedadının formalaşmasında əhəmiyyətli rol oynamışdır. O, insan amilinə böyük önəm verərək ehtiyac və ədalətsizliyin zərbəsi altında inləyən rus kəndlisinin yanında yer almış, onun dərdinə, kədərinə şərik çıxan "Qüdrətli dəstə" üzvləri arasında xüsusi yeri olan bəstəkardır.*

*Musorqski rus musiqisini bir çox nailiyyətlərlə, yeniliklərlə zənginləşdirmiş sənətkardır. Onun əsərləri həm müraciət etdiyi mövzu və obrazlar baxımından, həm musiqi dili cəhətdən bir çox yeni xüsusiyyətlər daşıyırdı.*

*M.Musorqski musiqi ifadə vasitələrini xeyli yeniləşdirmiş bəstəkar idi. Onun harmoniya sahəsində istifadə etdiyi koloristik effektələr o dövr musiqisi üçün tamamilə yeni idi.*

*Bir sənətkar kimi Musorqski tarixi faktlardan çox yüksəkdə dayanaraq, bunların dini, milli, ictimai səbəblərini araşdırır və müxtəlif dövrlərdə xalqın taleyindəki oxşar məqamları müqayisə etməklə sanki mürəkkəb vəziyyətdən çıxış yolunu göstərməyə çalışırdı.*

**Açar sözlər:** musiqi, mahnı, bəstəkar ,opera, yaradıcılıq
**Ключевые слова:** музыка, песня, композитор, опера, творчество
**Key words:** music, song, composer, opera, education

XIX əsrin ən görkəmli bəstəkrlarından biri olan M.P.Musorqski rus musiqisinə bənzərsiz əsərlər bəxş etmişdir. Bir musiqiçi kimi də, vətəndaş kimi də milli mənsubiyyətini, doğma vətəninə sədaqətini öz fəaliyyəti, yaradıcılığı ilə dönə-dönə təsdiqləmiş bəstəkardır.

Yaradıcı bir şəxsiyyət, novator musiqiçi kimi Musorqskinin nailiyyətləri milli mədəniyyətin hüdudlarını çoxdan adlayaraq, aid olduğu zaman çərçivəsini də aşmış, ümumdünya mədəniyyətinin mənəvi sərvətləri sırasına daxil olmuşdur.

M.P.Musorqski musiqi tarixinə görkəmli realist sənətkar kimi daxil olmuşdur. O, öz əsərlərinin mümkün qədər həyatiliyinə, həqiqətə uyğun olmasına çalışırdı.